

سه شنبه 14 اردیبهشت 1395 - 13:21

## Ermnistan rsmisi: biz Qaraba torpaqlarni qaytaracaq

Ermnistan parlamentinin sdr mavini: “Dnya Qaraba tanyan kimi biz bu torpaqlar qaytaracaq, onlara bizim hququmuz atmr, biz bu torpaqlar istmirik onlar yalnz bizim bufer zonamz, .”thlksizliyimizin zmantidir

**AranNews- İşğal altında olan torpaqlarımızdan hər gün sərhədyanı bölgələrdə yaşayan mülki əhali atəşə tutulur. Bunlar azmış kimi həyasızlıqlarına bəraət qazandırmaq üçün ötən həftə Ermənistan parlamentinin sədr müavini Ermine Nağdalyan qeyd etdi ki,erməni tərəfi Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş beş əraziyə iddialı deyil: “Dünya Qarabağı tanıyan kimi biz bu torpaqları qaytaracağıq, onlara bizim hüququmuz çatmır, biz bu torpaqları istəmirik – onlar .”valnız bizim bufer zonamız, təhlükəsizliyimizin zəmanətidir**

Buradan bir daha görünür ki, ermənilər işğalçı olmalarını etiraf edirlər, həm də avantüra ilə məşğul olurlar. Biz bu etiraflara aldanmamalıyıq. Çünki bu fikirlərin arxasında özlərini yazıq, məzlum kimi qələmə verməklə beş rayonun qarşılığında qondarma Dağlıq Qarabağ Respublikasını dünya ictimaiyyətinə tanıtmaq və ardınca istəklərinə nail olmaq kimi absurd məqsəd dayanır. Subyektiv fikrimiz olsa da, bildirməliyik ki, ermənilər məsələni belə qoyurlarsa, zərurət yaranıb ki, İrəvan Mühacir Hökuməti yaradılsın. Çünki İrəvan xanlığı bizim olub, bunu .tarixi faktlar da sübut edir

Tarixi xronoloji ardıcıllığın qorunması İrəvan həqiqətlərini yazılı və rəsmi olaraq mənbələrlə əsaslandırır. 1655-ci ildə İrəvana gəlmiş Jan Babtist Taverniyev xanlığı gəzərkən şəhər qalasında 800 müsəlmana aid evin olduğunu əsərlərində təsdiqləyib. Babtist yazıb: “ Şəhər torpaqlarını cənub-qərbdən axan Zəngi çayları suvarır. Sərdarın sarayı çox gözəl, möhtəşəm bir imarətdir. .”Min addım o yanda Keçi qalası ucalır

Xanlığın əhalisinin 20%-nin erməni, 80%-nin isə azəri türkü olmaqla bu torpaqların azəri türklərinə məxsusluğunu rus tarixçisi H. Şavrov da təsdiqləyib. Erməni tarixçisi A. Qioanisyanın XIX əsrin əvvəlində ermənilərin şəhər əhalisinin dörddə birini təşkil etməsini özləri belə etiraf .edib

Belə faktlar yüzlərlə olduğu halda Azərbaycan torpaqlarından Ermənistan “dövləti” yaradanlar utanmadan, çəkinmədən indi də beynəlxalq ictimaiyyətin qondarma Dağlıq Qarabağ Respublikasını tanımasını Ermine Nağdalyanın ehyamı ilə səsləndirir, bundan sonra erməni işğalıda olan digər beş rayonu qaytarmağı şərt kimi irəli sürür. Buradan da bir daha görünür ki, ermənilər könüllü beş rayonu qaytaran deyillər.Aparılan danışıqlar imitasya xarakterlidir ,erməni və onların tarixi havadarlarına vaxt qazanmaq üçün yetərlidir.Bunu ATƏT-in minsk üzvü olan .ölkələrin həmsədirləridə bilir,ermənilərin “əlinə”oynayırlar

!?Belə olduğu təqdirdə biz nədən gecikib, İrəvan Mühacir Hökumətini yaratmamalıyıq